Xalq qəzeti.- 2023.- 8 fevral.- S. 5



# Dünya azərbaycanlılarının ümummilli lideri

**Heydər Əliyev istər Azərbaycana rəhbərlik etdiyi, istərsə də Moskvada, SSRİ Nazirlər Sovetində yüksək vəzifədə çalışdığı dövrlərdə Gürcüstanın etibarlı dostu olub. Odur ki, qonşu ölkənin həm rəhbər şəxsləri, həm də bütün azərbaycanlılar ümummilli lideri böyük hörmət və ehtiramla xatırlayırlar. Gürcüstan parlamentinin sabiq deputatı Hidayət Hüseynov da 2023-cü il – "Heydər Əliyev ili"ndə ulu öndəri çox xatirələrlə yada saldı. "Heydər Əliyev dünyanın tarixi şəxsiyyətləri, siyasətçiləri arasında özünəməxsus dəst-xətti olan liderdir. Heydər Əliyev təkcə Azərbaycanın, yaxud Gürcüstan azərbaycanlılarının deyil, bütün dünya azərbaycanlılarının prezidenti, ümummilli lideridir. Biz hamımız şərəf və qürur hissi ilə deyirik ki, Heydər Əliyev heç zaman yaddaşlardan silinməyəcək". Bu sözləri bizimlə söhbətində Hidayət Hüseynov söylədi.**

H.Hüseynov ulu öndər Heydər Əliyevlə ilk dəfə Gürcüstan parlamentinin deputatı kimi, 1996-cı il yanvarın 5-də Bakıda görüşüb. Deputat həmkarları görüş zamanı əvvəlcə onun danışmağını məsləhət biliblər: "Çox həyacanlı idim. Belə bir tarixi şəxsiyyət, korifey siyasətçinin qarşısında çıxış etmək çox böyük məsuliyyət tələb edirdi. Mən Gürcüstan Prezidenti Eduard Şevardnadzenin salamlarını çatdırdım və bəzi məsələlər barədə danışdım. Mənim sıxıntı keçirdiyimi hiss edən Heydər Əliyev özünəməxsus şəkildə sözümü kəsdi və dedi ki, sən yaxşı danışırsan. Gürcüstan azərbaycanlıları Azərbaycan dilində bəzi nazirlərdən yaxşı danışırlar. O bu replikası, zarafatı ilə mənə ruh verdi", – deyə Hidayət müəllim bildirdi.

O, daha sonra qeyd etdi: "Heydər Əliyev Azərbaycan dövlətinin memarı və qurucusudur. Məhz onun siyasi və zəngin dövlətçilik bacarığı nəticəsində Azərbaycan parçalanmaqdan xilas oldu. Onun 1990-cı il yanvarın 21-də Moskvadakı qətiyyətli addımı, cəsarətli çıxışı, 1993-cü ilin gərgin dövrlərində Gəncəyə getməsi, qardaş qırğınının qarşısını alması bizi çox sevindirdi".

Onun sözlərinə görə, Heydər Əliyevin bu qətiyyətli addımı, eyni zamanda, Gürcüstan ilə münasibətlərə də öz müsbət təsirini göstərib. Heydər Əliyevin 1996-cı ildə Tbilisidə soydaşlarımızla görüşü də mühüm tarixi əhəmiyyət kəsb edib. Onun azərbaycanlıları diaspor deyil, yerli aborigen xalq adlandırması sıradan replika deyildi. Ulu öndər bununla çoxlarına ciddi siqnal və sifariş vermiş, bildirmişdi ki, burada yaşayan azərbaycanlılar tək deyillər, onların arxasında Azərbaycan dövləti dayanıb. O, bu sözləri ilə azərbaycanlılarla bağlı tarixə möhür vurub. Gürcüstanda yaşayan azərbaycanlılar bunu heç zaman unutmayacaqlar.

"Belə bir deyim var: "Diri var ki, tez bükəsən ağlara, ölü var ki, dayaq olur sağlara". Bu gün Heydər Əliyev cismən aramızda olmasa da, onun adı, müqəddəs ruhu bizə dayaqdı. Biz onu heç zaman unutmadıq və unutmayacağıq", – deyə sabiq deputat vurğulayıb.

Hidayət Hüseynov Azərbaycanın bugünkü sürətli inkişafını da xüsusilə qeyd edib: "Biz həm də çox sevinirik ki, ulu öndərin siyasi kursunun layiqli davamçısı var. Ulu öndərimizin Prezident İlham Əliyev kimi siyasi lider yetişdirməsi də tarixdə nadir hadisələrdəndir. Biz şox sevinirik və şükür edirik ki, Azərbaycanımızın belə praqmatik, uzaqgörən, bacarıqlı Prezidenti var. Otuz ilə yaxın bir müddətdə işğal altında olan torpaqlarımızın 44 günlük müharibə nəticəsində azad edilməsi, müharibə dövründə İlham Əliyevin xarici KİV-lərə verdiyi müsahibələr, digər ölkələrin dövlət və hökumət başçılarına verdiyi cavablar onu bizim qürur mənbəyimizə çevirdi. Biz xoşbəxt xalqıq ki, ulu öndər Heydər Əliyev kimi ümummilli liderimiz, onun layiqli davamçısı, Prezident İlham Əliyev kimi rəhbərimiz var".

**Nəriman ƏLİYEV**

**P.S.** Yazı Diasporla İş üzrə Dövlət Komitəsi və "Xalq qəzeti"nin birgə layihəsi əsasında hazırlanıb.